*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 206-211* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.206*

# Mirzə Ələkbər Sabirin uşaq şeirlərində əxlaq və mənəvi tərbiyənin funksional səciyyəsi

**Şöhrət Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

**Annotasiya.** İyirminci yüzillik Azərbaycan ədəbiyyatının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri M.Ə.Sabirdir. Onun zəngin yaradıcılığı artıq yüz ildən çoxdur ki, müxtəlif aspektlərdə tədqiqatların mövzusuna çevrilmişdir. Ümumiyyətlə, on doqquzuncu yüzilliyin sonu və iyirminci əsrin ilk onilliklərinin spesifikası bütün parametrlərdə etnik kimliyin təqdiminə, folklordan gələn işarələnmənin simvolikasına və yaradıcı axtarışlarının mühiti, problemləri dərk və təqdim imkanlarına görə daha çox diqqəti cəlb edir. S.Ə.Şirvani, H.Zərdabi, C.Məmmədquluzadə, Ə.Nəzmi, N.Nərimanov, Ə.Qəmküsar, M.Ə.Möcüz, S.S.Axundov, Ü.Hacıbəyov, S.M.Qənizadə, R.Əfəndiyev, Y.V.Çəmənzəminli, A.Şaiq, H.Cavid, A.Səhhət, F.Köçərli və s. sənətkarların zəngin yaradıcılığında özünü göstərən milli məfkurə, etnik dəyərlərin uca tutulması, dəyər və davranış kodeksi bütün spektrləri ilə toplumun arxaik qatda qəlibləşmiş təsəvvürlərini bir etnopotensiya olaraq təlqinə yüklənirdi. Burada uşaq ədəbiyyatı yaratmaq işi, mətbuatın funksional səciyyəsi və problem aktuallığı həmişə cəmiyyət səviyyəsində olanları ifadəyə, maarifləndirmə işinə və şəxsiyyət tərbiyəsinə köklənirdi. “Dəbistan”, “Rəhbər”, “Məktəb” və s. kimi mətbuu orqanlarının səhifələrində özünə yer alan uşaq ədəbiyyatı nümunələri bütün tərəfləri ilə gənc nəslin formalaşmasına, milli-əxlaqi dəyərlər üzrə tərbiyələnməsinə köklənmişdir. M.Ə.Sabirin “Uşaqlara hədiyyə” silsiləsindən olan şeirləri bu gərəkli işin mühüm nümunəsidir.

**Açar sözlər:** M.Ə.Sabir, uşaq şeirləri, məktəb, dərslik, uşaq ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 05.02.2025; qəbul edilib – 19.02.2025

# Functional characteristic of moral and spiritual education in Mirza Alakber Sabir's children's poems

**Shohret Mammadova**
Doctor of Philosophy in Philology, Associate Professor
Azerbaijan State Pedagogical University
E-mail: sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

**Abstract.** One of the greatest personalities of twentieth-century Azerbaijani literature is M.A.Sabir. His rich creativity has been the subject of research in various aspects for more than a hundred years. In general, the specifics of the late nineteenth and early twentieth centuries are more focused on the presentation of ethnic identity in all parameters, the symbolism of the signification coming from folklore, and the environment of creative searches, the possibilities of understanding problems and presenting them. The national ideology, exaltation of ethnic values, and the entire spectrum of values and codes of conduct, manifested in the rich

creativity of artists such as S.A.Shirvani, H.Zardabi, J.Mammadguluzadeh, A.Nazmi, N.Narimanov, A.Gamkusar, M.A.Mojuz, S.S.Akhundov, U.Hajibeyov, S.M.Ganizadeh, R. Efendiyev, Y.V.Chamanzaminli, A.Shaig, H.Javid, A.Sahhat, F. Kocharli, etc., were loaded with the inculcation of archaic ideas of society as an ethnopotentiality. Here, the work of creating children's literature, the functional nature of the press, and the relevance of the problem were always rooted in the expression of what was happening at the level of society, the work of enlightenment, and the education of personality. The examples of children's literature that appear on the pages of press organizations such as “Debistan”, “Rehber”, “Mekteb”, etc. are rooted in all aspects of the formation of the younger generation and the upbringing of national and moral values. M.A.Sabir's poems from the series “Gift for Children” are an important example of this necessary work.
**Keywords:** M.A.Sabir, children's poems, school, textbook, children's literature

**Article history:** received – 05.02.2025; accepted − 19.02.2025

## Giriş / *Introduction*

Xalqın zəngin folklor mədəniyyəti bütün zamanlarda, yazılı ədəbiyyatın ilkin nümunələrindən günümüzə qədər qaynaq funksiyasını yerinə yetirmişdir. Ədəbiyyatın yazılı qolu uşaqların istək və arzularını, əxlaq və davranışlarını, zəngin fantaziyasını, həyat ideallarını, qaynar təbiətini əks etdirəcək nümunələrdə də bu möhtəşəm potensiyadan bəhrələnməyi bir məqsəd olaraq qarşıya qoymuşdur. Folklorşünaslar uşaq folklorunu iki istiqamətdə təhlildən keçirirlər və ilk öncə bunlar uşaqların özləri tərəfindən yaranan nümunələr kimi xarakterizə olunur. Daha doğrusu, bunlar uşaqların təbii şəkildə müxtəlif səviyyələrdə özləri tərəfindən yarananlardır. Digər xətt böyüklərin uşaqlarla bağlı yaratdıqlarıdır. Bütün bunlar bir zənginlik və rəngarənglik örnəyi olaraq yazılı ədəbiyyat üçün qaynağa çevrilir. Ayrı-ayrı əsrlərdə yaşamış ədiblər öz yaradıcılığında bu ucu-bucağı görünməyən ədəbiyyat örnəklərindən imkanları daxilində bəhrələnmiş, həm də əlavələrini etmişlər. M.Ə.Sabir də bu sırada uşaqlar üçün yaratdığı əsərləri ilə bir əsrarəngizliyi, möhtəşəmliyi nümunə olaraq ortaya qoyur.

## Əsas hissə / *Main Part*

**Maarifçilik hərəkatı və uşaq ədəbiyyatı**. “Rəhbər”, “Dəbistan” jurnallarının səhifələrində yer alan poetik örnəklər yazıldığı (daha doğrusu, geniş ictimaiyyətə təqdim olunduğu) vaxtdan günümüzə qədər dillər əzbəri olmuşdur. Bu poetik nümunələr ədəbiyyat tariximizə M.Ə.Sabir adını təkcə mollanəsrəddinçi şair kimi həkk etməmişdir, həm də onu uşaqların sevimlisi, uşaq ədəbiyyatının istedadlı nümayəndəsi kimi tarixi yaddaşa yazmışdır. Onu da deyək ki, bu nümunələr sırf tarixi zərurətin, maarifçilik işinin, dərslik ehtiyaclarının aradan qaldırılması kimi də spesifikləşir. “Rəhbər” jurnalının baş redaktoru, görkəmli maarifçi M.Mahmudbəyov köşə yazısında vurğulayırdı ki, “məqsədimiz məktəblərimizin müntəzəmliyinə, millətimizin məişət meydanında, elm və mərifət yolunda irəli getməsinə və milli ədəbiyyatdan xəbərdar olmasına əlimizdən gələn qədər rəhbərlik etməkdir” [2, s.61]. Böyük maarifçinin vurğuladığı “məqsədimiz” konsepsiyası bütün mahiyyəti ilə xalq səviyyəsində yaşanan problemlərin aradan qaldırılmasına hesablanmışdı. M.Mahmudbəyov da öz fəaliyyətində bunları bir tərəf olaraq əsas götürməklə onun aradan qaldırılmasına köklənmişdi.

Uşaq ədəbiyyatı baxımından gedən proseslər və onun ümumi mənzərəsi bütünlükdə on doqquzuncu yüzillik boyu getmiş, həm də artan istiqamətdə özünü göstərməklə səciyyələnir. A.Bakıxanovun, M.Ş.Vazehin, İ.Qutqaşınlının, M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin və başqalarının fəaliyyəti bu problemlərin aradan qaldırılmasına və uğurlu həllinə köklənmişdi. M.Ə.Sabirin uşaq şeirləri, məktəb, təhsil, dərslik və s. bağlı mülahizələri bütün səviyyələrdə uğurlu axtarışlara və bir-birindən maraqlı örnəklərin ortaya çıxmasına əsas olmuşdu. “Məktəb şərqisi”, “Məktəbə tərğib”, “Elmə tərğib”, “Yaz günləri”, “Ağacların bəhsi”, “Cütcü”, “Qarğa və tülkü”, “Mək-

təb uşaqlarına töhfə", "Məktəb şagirdlərinə töhfə", "Təbib ilə xəstə", "Qoca bağban", "Qarınca", "Molla Nəsrəddinin yorğanı", "Uşaq və pul", "İsgəndər və fəqir", "Azarlı kəndçi", "Camuçmu və sel", "Molla Nəsrəddin və oğru", "Örümçək və oğru", "Artıq alıb, əskik satan tacir", "Yalançı çoban" və s. şeirlərinin sərgilədiyi təsəvvür bir neçə istiqamətdə araşdırmanı zəruriləşdirir. Bunlar bir istiqamətdə paradiqmatik səviyyənin açımına zərurət yaradırsa, digər aspektdə sintaqmatik mənzərənin formulasını muhüm olan kimi araşdırmağı zərurətə çevirir. Əlbəttə burada problemin janr səviyyəsində əhatələdiyi təsəvvür də diqqətçəkici məsələ kimi funksional məzmunu ilə spesifikləşir.

**M.Ə.Sabirin uşaq şeirlərinin ümumi məndəricəsi**. Folklor bütün spesifikası və metamodel olma funksiyası ilə etnosun gerçəklik haqqında təsəvvürlərini, dünyanı dərk konseptini təqdimetmə istəyi və gücü ilə özünü nümayiş etdirir. Uşaq poeziyası da eyni təsəvvürün və metadilin modeli olaraq özünü nümayiş etdirir və bütünlükdə mifdən üzü bəri gələnlərin bilgi və düşüncə sistemi kimi qəlibləşir. M.Ə.Sabir də uşaq şeirlərində özünəməxsus təqdim üsullarının nümayişi ilə diqqət önünə gəlməklə ədəbiyyata, ədəbi-mədəni prosesə öz töhfələrini verir. Yaradıcı istedadı məzmunu, problematikası və yazı prosesində sərgilədiyi müəyyənliklə mahiyyəti, sənətkar məramını ortaya qoyur. Ümumiyyətlə, "Azərbaycan ədəbiyyatı tarixində folklor və yazılı ədəbiyyatın bir-birindən istifadəsi, qidalanması qarşılıqlı olmuşdur. Belə ki, folklor yazılı ədəbiyyatın əsas mənbəyi olduğu və bütün inkişaf prosesində ədəbiyyata təsir etdiyi kimi, ədəbiyyatın da öz növbəsində şifahi yaradıcılığa mühüm və səmərəli təsiri görünməkdədir. Bu təsir dildə, formada, ifadə vasitələrində, xalqı maraqlandıran, düşündürən bir sıra ideya və motivlərdə özünü göstərmişdir" [3, s.466]. Uşaq ədəbiyyatında bunun görünüşü və aydınlığı, həm də ifadəlilik mexanizmi daha parlaqlıqla özünü nümayiş etdirir. Folklorda özünü göstərən komponentlər, düşüncə və təfəkkür mexanizmləri, kanonik sistemin ortaya qoyduğu normativlər bir mahiyyət kimi özünü nümayiş etdirir və etnosun arxaik qatı ilə uşaq təbiətinin bir eyniyyəti özün göstərir. "Yaz günləri", "Ağacların bəhsi", "Cütcü", "Qarğa və tülkü", "Təbib ilə xəstə", "Qoca bağban", "Qarınca", "Molla Nəsrəddinin yorğanı", "Uşaq və pul", "İsgəndər və fəqir", "Azarlı kəndçi", "Camuşçu və sel", "Molla Nəsrəddin və oğru", "Artıq alıb, əskik satan tacir", "Yalançı çoban" və s. bunun klassik örnəyidir.

*Bir kişi saxlayırdı bir camuş,*
*Su qatırdı südə, edirdi firuş.*
*Yağdı şiddətli bir yağış nagah,*
*Kişinin vəzi-hali oldu təbah.*
*Tutdu dünyanı sellərin cuşi,*
*Dər-zaman aldı, getdi camuşi.* [11, s.397]

Folklor bütün formulası ilə etnosun həyat təcrübəsini, zənginlik qatını özündə ehtiva etmək xüsusiyyəti ilə səciyyələnir. M.Ə.Sabir də məhz xalq ədəbiyyatından gələn zənginlikləri şeirə gətirməklə uşaqlar üçün orijinal bir ədəbiyyat nümunəsi yaratmışdır.

Azərbaycan xalqının dünyanın o başından süzülüb gələn və yaddaşlarda yaşarlıq qazanan folklor mədəniyyəti toplumun istək və arzularını, dünyagörüşünü, həyat təcrübəsini ümumiləşdirmək məqsədi və məramı ilə spesifikləşir. Burada da dillər əzbərinə çevrilmiş bir hadisə lətifə və əhvalat kimi tərbiyəvi məzmunu ilə M.Ə.Sabir təfəkküründə orijinallıqla özünü göstərir. Ata və oğul mükaliməsində reallaşan bu əhvalat oğlun dedikləri ilə öz mahiyyətində olanları açıqlayır. "Söyləmə kim, fələk qəzasıdır bu, tutduğun işlərin cəzasıdır bu" deyimi uşağın (oğlun) dilindən ataya deyilməsi xalq müdrikliyindən gələnlərin, haram//halal timsalında aqibətin məzmununu sərgiləyir. "Artıq alıb, əskik satan tacir" şeirində isə sənətkar bir başqa məqamı, adın ehtiva etdiyi hadisəyə dayanan fakturasını açıqlayır. Ata və oğul timsalında göz önünə gələn hadisə lətifə, məsəl səviyyəsində xalq arasında dolaşanlardan bədii mətnə gətirilir. Nağıl, əhvalat, lətifə normativləri əsasında işləklik qazanan bu hadisə reallıqdan gələnlərə, həyat təsəvvürlərinə söykənən olacaqlara söykənməklə, tipik bir nümunə kontekstində yaddaş hadisəsinə çevrilir.

*Bir nəfər tacir öz dükanında,*
*Oğlunu saxlayırdı yanında.*
*Eləyirdi qəribə dadü stad:*
*Satdığında – kəm, aldığında – ziyad.*
*Məkrü təzvir idi onun hər işi,*
*Düz deyildi bütün alış-verişi.* [11, s.400]

Xalq arasında bunlar tipik faktlarla və düşüncədə maraqlı ümumiləşdirmələrlə yadda qalır. Ədəbi-mədəni mühit bu tip hadisə və əhvalatları maraqlı canlandırma üsulları ilə geniş ictimaiyyətə çatdırmaq məqsədində olurlar. Bunlar bir tərbiyə, əxlaq, davranış norması olaraq bütün səviyyələrdə auditoriyaya lətifə, uşaq ədəbiyyatı örnəyi şəklində ünvanlanmaqla, aşağıdan yuxarı və fövqəlzamanlıq, fövqəlməkanlıq səviyyəsində faktlaşır. Baş verən hadisəni müşahidə edən pirin dedikləri baxımından məsələyə münasibət təsadüfi deyil, sırf reallığa bağlanır. Xalq arasında “atanın tökdüklərini bala götürər”, “ana gəzən ağacı bala budaq-budaq gəzər” məsəlləri var və bunlar heç də təsadüf fakt olaraq yaddaşlarda öz izini qoymur. M.Ə.Sabirin bu şeiri də eyni tezis və təsəvvürə yüklənməklə mahiyyəti açır, daha doğrusu atanın etdiklərinin bir yaşam tərzi səviyyəsində oğulda təkrarlanması ilə səciyyələnir.

*Gördü bir pir, xeyli təcrübəkar,*
*Dedi: Etmə əbəs buna azar.*
*Əkdiyin danənin budur səməri,*
*Səndən əxz eyləyib həmin hünəri.* [11, s.400]

M.Ə.Sabir bütün səviyyələrdə və şəraitlərdə fitri yaradıcı istedadı ilə orijinal əsərlər yaratmaq gücünü ortaya qoya bilən sənətkarlardandır. Uşaq ədəbiyyatı yaratmaq işində də eyni səviyyəni qoruyub saxlaya bilmək imkanları ilə nəzər-diqqəti cəlb edir. “Artıq alıb, əskik satan tacir” poetik nümunəsi tərbiyə örnəyi olaraq uşaqların düzlük, xeyirxahlıq, yaxşılıq kimi əxlaqda formalaşması üçün əsas olur. Sonluqda “saleh ol, saleh olsun övladın, taleh ol, taleh olsun övladın”, deyimi sırf reallığa, həyati olanın dərk və təqdiminə, nəticə çıxarmaya bağlanır. “Nə tökərsən aşına, o da çıxar qaşığına” təsəvvürü folklordan gələnlərin nümunəsi kimi müxtəlif hadisə, əhvalat səviyyəsində bədii düşüncəni izləyir. “Sabirin şeirləri ideya-mövzu, janr və sənətkarlıq xüsusiyyətlərinə görə çox zəngindir. Zaman keçdikcə, illər, qərinələr bir-birini əvəz etdikcə, Sabir – o böyük şair və vətəndaş oxucuya daha da yaxınlaşır” [7, s.13]. Doğrudan da bu şeirlərin yazılmasından yüz ildən çox vaxt keçməsinə baxmayaraq, öz orijinallığını, yüksək sənətkar intelleksiyası əks etdirməsini, klassik uşaq ədəbiyyatının ən şedevr nümunələrindən biri olmaq imkanlarını qoruyub saxlayır. “Qarğa və tülkü”, “Təbib ilə xəstə”, “Qoca bağban”, “Molla Nəsrəddinin yorğanı”, “Örümçək və oğru”, “Yalançı çoban”, “Uşaq və pul”, “İsgəndər və fəqir”, “Azarlı kəndçi”, “Molla Nəsrəddin və oğru” və s. bütün formulası, mətn konstruksiyası, məzmun xətlərinin orijinallığı ilə eyni yüksək təsəvvür və intelleksiyanı sərgiləyir.

Məktəb, tədris, dərslik, qadın təhsili sahəsində olan problemlər on doqquzuncu yüzillik boyu ziyalı mühitini düşündürmüşdü. A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, H.Ə.Qayıbov, C.Ünsizadə, M.Şahtaxtlı, Ö.F.Nemanzadə, S.M.Qənizadə, F.Köçərli və s. kimi ziyalılarımız bu sahədə fədakarlıq nümunəsi göstərmişlər. Uşaqlar üçün yazılmış əsərlərdə təhsil, məktəb və s. kimi məsələlər müxtəlif səviyyələrdə özünə yer alırdı. M.Ə.Sabirin yaradıcılığında da bu tip şeirlər ayrıca bir hissədir. “Məktəb şərqisi”, “Məktəbə tərğib”, “Elmə tərğib”, “Məktəb uşaqlarına töhfə”, “Məktəb şagirdlərinə töhfə” və s. bütün tərəfləri ilə yaranmış problemlərin çözümünə hesablanmışdı.

*Məktəb, məktəb, nə dilgüşasan,*
*Cənnət, cənnət desəm səzasan.*
*Şadəm, şadəm təfərrücündən,*
*Əlhəq, əlhəq, gözəl binasan.*

*Dəftər, dəftər xəbərlərin var,*
*Rəhbər-rəhbər əsərlərin var,*
*Mişgin-mişgin qələmlərində,*
*Ahu-ahu nəzərlərin var.* [11, s.375]

Bu və bu kimi nümunələr şeir, hekayə, nağıl və s. formalarda ziyalı mühitin yaradıcılığında ayrıca bir hissəni təşkil edir və mahiyyəti ilə illərlə qalaqlanan problemlərin çözülməsinə, maariflənmə işinin təşkilinə hesablanırdı. "Uşaq poeziyasının mövzu və məzmunundan danışarkən, adətən onun tərbiyəedici mahiyyəti ön plana çəkilir. Yazılmış bədii əsər balaca oxucuya hansı hissləri təlqin edir, onun həyata hazırlanmasında nə dərəcədə rol oynayır, qarşısında hansı perspektivləri açır? Əsərin bədii məziyyətlərinə belə bu keyfiyyətlərin uşaq qəlbinə və hissinə nə dərəcədə nüfuz etməsi ilə bağlı qiymət verməyə çalışırlar.

Poeziyanın mövzu dairəsinin müəyyənləşdirilməsində yeni dövrün tələblərini qətiyyətlə nəzərə alan sənətkarlar uşaqların elm və təhsilə cəlb edilməsinə, yüksək estetik zövq sahibi kimi böyüməlİərinə, vətəndaşlıq duyğuları ilə tərbiyə olunmalarına çalışmışlar" [8, s.110-111]. M.Ə.Sabirin uşaqlar üçün yazdığı poetik nümunələri tərbiyə, əxlaq, estetik zövq aşılanması baxımından mükəmməl sənət nümunələridir. Elmə, təhsilə çağırış xarakterli şeirləri də bu sıradadır.

*Mənim bağım, baharım!*
*Fikri ziyalı oğlum!*
*Məktəb zamanı gəldi,*
*Dur, ey vəfalı oğlum!*
*Ey gözüm, ey canım!*
*Get məktəbə, cavanım!* [11, s.376]

Məktəb, uşaqların təhsil problemi M.Ə.Sabir, R.Əfəndiyev, F.Köçərli, S.M.Qənizadə, A.Səhhət, M.Hadi və s. kimi ədiblərin yaradıcılığında ayrıca bir hissəni əhatələyir və müxtəlif aspektlərdə araşdırmaların problemi olaraq özünü göstərir. M.Ə.Sabirin şeirlərində mətn və mühit, mətn və subyekt səviyyəsində sərgilənən düşüncə ayrıca bir orijinallığı nəzərə çarpdırır. "Bu əsərlər nəsihətamiz mənzum hekayələrdən, elm və məktəbi təbliğ edən şeirlərdən, məktəb şərqilərindən, habelə təmsillərdən ibarətdir" [9, s.128]. M.Ə.Sabir istedadı bütün poetik nümunələrdə yüksək sənət intelleksiyası əks etdirmək, sadə, aydın, həm də problemlərin həllinə yönəlik məramı əhatələmək xüsusiyyəti ilə spesifikləşir. Mətn fenomenliyi, sözün məna yaddaşı, janr səviyyəsi ilə bir harmoniyanı təşkil etmək imkanları baxımından əsaslı təsəvvür formalaşdırır.

## Nəticə / *Conclusion*

M.Ə.Sabirin uşaqlar üçün yazdığı şeirləri on doqquzuncu yüzilliyin ikinci yarısından sonrakı prosesin ən tipik nümunələrindən biri kimi diqqəti cəlb edir. İyirminci yüzilliyin ilk onilliklərində meydana çıxan bu nümunələr dövrün elm, təhsil, məktəb problemlərini özündə ehtiva etmək imkanları ilə tipik səciyyə daşıyır. Xalqın zəngin folklor mədəniyyətindən gələn üslub, təhkiyə elementləri, dil zənginliyi, hadisələri əksetdirmə mexanizmləri şairin yaradıcı istedadını, uşaq ədəbiyyatı yaratmaq işində nümunə olmasını faktlaşdırır. Ədibin iyirminci yüzillik boyu və hətta çağdaş mərhələdə yaranan dərsliklərin səhifələrində özünə yer alan uşaq şeirləri gənc nəslin yüksək əxlaqi dəyərlər əsasında tərbiyə olunması baxımından əvəzolunmazdır. Bütün bunlar M.Ə.Sabir poeziyasının əlçatmazlığını, uşaq ədəbiyyatında yerinin ucalıq olduğunu aydınlaşdırır.

## Ədəbiyyat / *References*

1. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. – Bakı: Elm, 1998, 300 s.
2. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. – Bakı: Maarif, 1982, 428 s.

3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: Maarif, 1992, 477 s.
4. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: Elm və təhsil, 2014.
5. İsayev İ. Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək. – Bakı: ADPU, 2014, 406 s.
6. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. – Bakı: Maarif, 1966, 488 s.
7. Məmmədov M. Şairin poetik irsi. Sabir M.Ə. Hophopnamə. – Bakı: Yazıçı, 1992.
8. Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. – Bakı: Maarif, 1992, 288 s.
9. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. – Bakı: BDU, 2007, 444 s.
10. Nəzirli Ş. Qoridən gələn qatar. – Bakı: Şərq-Qərb, 2018, 492 s.
11. Sabir M.Ə. Hophopnamə. – Bakı: Yazıçı, 1992, 558 s.

## Функциональный характер духовно-нравственного воспитания в детских стихотворениях Мирзы Алекпера Сабира

**Шохрат Мамедова**
Доктор философии по филологии, доцент
Азербайджанский государственный педагогический университет
E-mail: sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

**Резюме.** Одним из величайших деятелей азербайджанской литературы XX века является М.А.Сабир. Его богатое творчество уже более ста лет является предметом исследований в различных аспектах. В целом специфика конца XIX века и первых десятилетий XX века заключается в том, что все больше внимания уделяется представлению этнической идентичности во всех параметрах, символике знаков, идущих из фольклора, среде творческих поисков, возможности понимания проблем и их представления. Национальная идеология, возвеличивание этнических ценности, а также весь спектр ценностей и норм поведения, проявленных в богатом творчестве таких художников, как С.А.Ширвани, Г.Зардаби, Дж.Мамедгулузаде, А.Назми, Н.Нариманов, А.Гамкусар, М.А.Моджуз, С.С.Ахундов, У.Гаджибеков, С.М.Ганизаде, Р.Эфендиев, Ю.В.Чеменземинли, А.Шаиг, Г.Джавид, А.Саххат, Ф.Кочарли и др., были нагружены внедрением архаичных стереотипов как этнопотенциала общества. Здесь и работа по созданию детской литературы, и функциональность прессы, и актуальность проблемы всегда коренились в выражении того, что происходило на общественном уровне, в работе просвещения, в воспитании личности. Образцы детской литературы, появляющиеся на страницах таких изданий, как “Dəbistan”, “Rəhbər”, “Məktəb” и др., направлены на формирование подрастающего поколения, воспитание его на национально-нравственных ценностях. Стихи М.А.Сабира из цикла “Uşaqlara hədiyyə” являются важным примером этой необходимой работы.
**Ключевые слова:** М.А.Сабир, детские стихи, школа, учебник, детская литература